**UOT:** 378.6; 355; 359
**KBT:** 68.49e
**DOI:** 10.33864/2617-751X.2024.v7.i2.31-43
**MJ №** 208

# Hərbi münaqişələrə dair nəzəri baxışların təkamülü

**Zəfər Nəcəfov***

**Abstrakt.** Məqalə hərbi münaqişələrin mənşəyi, tarixi inkişaf xüsusiyyətləri və elmi yanaşmalarından bəhs edir. Bəşər tarixində silahlı qarşıdurmaların və müharibələrin yeri və rolu, onların dualist mahiyyəti və anlayış aparatının izahı problemin öyrənilməsində açar rolu oynayır. Sosial-iqtisadi formasiyalarda nəzərə çarpan radikal dəyişikliklər hərbi münaqişələrin xarakterinə, üsul və vasitələrinə ciddi təsir göstərib, bu istiqamətdə elmi araşdırmaların meydana gəlməsinə və inkişafına zəmin yaradıb. “Hərb işində inqilab” silahlı mübarizənin transformasiyası və “müharibə nəsilləri” bölgüsünün yaranması ilə nəticələnib. Müxtəlif məktəb və yanaşmalar kontekstində hərbi münaqişələrin izahı bu sosial fenomenin çoxtərəfli və mürəkkəb xarakterə malik olması, digər elmi sahələri ilə sıx bağlılığına dəlalət edir.

**Açar sözlər:** hərbi münaqişə, sosial-iqtisadi formasiya, qloballaşma, transformasiya, beynəlxalq təhlükəsizlik

## 1.Giriş

Silahlı zorakılığı tarixi inkişaf prosesindən kənarlaşdırmaq mümkün deyil. Məhz onun sayəsində yeni geosiyasi reallıqlar, qüvvələr nisbəti, təsir dairələri, məhsuldar qüvvələrin inkişafı və yeni oyun qaydaları formalaşıb. Bütövlükdə müharibə köhnə status-kvonu inkar edir, yeni geosiyasi reallığa söykənən nizamın yaranmasına səbəb olur. Müharibə baxışların, statusların, təsir imkanlarının, oyun qaydalarının yenilənməsi, bütövlükdə idarəetmənin böhran və ya transformasiyası ehtiyacından meydana gəlir. Tənəzzül və tərəqqi dilemmasında əbədi özünə yer edən müharibələrin forma, vasitə və aktorları dəyişsə də, sosial mahiyyəti dəyişməz qalır.

* Milli təhlükəsizlik və hərbi elmlər üzrə fəlsəfə doktoru,
Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutu; Bakı, Azərbaycan
E-mail: zafarnajafov@yahoo.com
https://orcid.org/0000-0002-1392-9359

**Məqaləyə istinad:** Nəcəfov, Z. [2024] Hərbi münaqişələrə dair nəzəri baxışların təkamülü. *“Metafizika” jurnalı, 7(2),* səh.31-43.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i2.31-43

**Məqalənin tarixçəsi:**
*Məqalə redaksiyaya daxil olmuşdur: 12.03.2024*
*Təkrar işlənməyə göndərilmişdir: 15.04.2024*
*Çapa qəbul edilmişdir: 29.04.2024*

Bu günədək elmi ədəbiyyatda rastlaşdığımız "ticarət müharibəsi", "şəbəkə müharibəsi", "kognitiv müharibə", "neft-qaz müharibəsi", "hibrid müharibə" və s.-ri forma baxımından müharibələrinin ciddi dəyişikliyə məruz qaldığını deməyə əsas versə də, mahiyyət baxımından onun klassik məzmununu saxladığını təsdiq edir. Məqalədə sintez, analiz, induksiya və deduksiya tədqiqat metodlarından istifadə edilib.

Silahlı mübarizə geosiyasi dəyişikliyin və mübarizənin hərbi-siyasi ölçüsü olaraq qalmaqdadır. Daha üstün mövqeyə nail olmaq, idarəetmənin coğrafi hüdudlarını genişləndirmək, əks fəaliyyətlərin qarşısını almaq, düşmənləri tam və ya qismən sıradan çıxartmaq hər bir müharibənin qarşısında dayanan strateji məqsəd hesab edilir.

Hərbi münaqişələr hər bir sosial-iqtisadi formasiyanın inkişafında özünəməxsus rol oynayıb. Tarix boyu qəbilələr, tayfalar və dövlətlər öz problemlərini və ehtiyaclarını zorakı vasitələrlə gerçəkləşdirməyə meyilli olublar. Bu bir tərəfdən insan xarakterində təcavüzkarlığa və hökmranlığa meyilli olması, digər tərəfdən zorakılığın daha təsirli vasitə olması səbəbindən müharibələr, silahlı toqquşmalar və qarşıdurmalar qaçılmaz olub. Məhz bu səbəbdən antik dövrün mütəfəkkirləri öz əsərlərində "müharibəni hər şeyin allahı" və "ictimai münasibətlərin təbii vəziyyəti", "yaşamaq uğrunda mübarizə", "siyasətin zorakı yollarla davamı", "sosial nevroz", "hiyləgərlik yolu" və s. ifadələrlə xarakterizə etmişlər [1, s.5].

Hətta orta əsrlər, yeni və müasir dövrlərdə müharibələrin hümasitləşdirilməsi istiqamətində səsləndirilmiş fikirlər, institusional tədbirlər hərbi zorakılığın qarşısını ala bilməmiş, əksinə onun legitimləşməsinə zəmin yaratmışdı. Sülh ilə zorakılıq arasında tarixi qarşıdurmadan sonuncu qalib çıxmış və özünü təsdiqləməyi bacarmışdır. Buna misal qismində Haaqa və Cenevrə Konvensiyalarını, Brian-Kelloq müqaviləsini göstərmək kifayətdir. Hətta BMT Nizamnaməsinin 51-ci maddəsi özünümüdafiə müharibəsinə imkan verir.

Bəşər tarixində müharibənin sülhü üstələməsi statistik faktlarda da özünü büruzə verib. Belə ki, müasir dövrdə dövlətlərin üçdə biri müharibə şəraitindədir. Ümumi qəbul edilmiş belə bir nöqteyi-nəzər mövcuddur ki, yer üzərində heç zaman sülh olmayıb, bu günədək (55,5 əsr ərzində) bəşər tarixində 14,500 müharibə baş verib, 3640 milyon insan həlak olub [2, s.1].

Qədim dövrlərdən başlayaraq, müharibə və silahlı münaqişələr bəşəri inkişafın əsas bələdçisinə çevrilmiş və bu hadisələrin öyrənilməsində elmi biliklərin rolunu artırmışdı. Elmi tədqiqatların predmeti dövlətin yaradılmasında, dərin qanunauyğunluqların və tendensiyaların təzahüründə və inkişafında, hərbi zorakılığın qarşısının alınması və nəticələrinin yumşaldılması və s. məsələlərdə müharibə və silahlı münaqişələrin genezisi, yeri və rolu məsələsi hesab edilir.

Müharibə haqqında ilk təəssüratlar b.e.ə. XVIII əsrdə çar Hammurappinin fəaliyətindən bəhs edən qədim Babil mənbələrində, b.e.ə.IV əsrdə Manu qanunlarında, qədim Çinin hərb nəzəriyyəçisi və sərkərdəsi Sun-Tszının (təribən b.e.ə. V əsr) əsərlərində [3, s.4], qədim Yunanıstan və Romada yaşamış filosofların fəlsəfi-siyasi traktatlarında, həmçinin Antik dövrün digər elmi və yazılı abidələrində rast gəlinib.

**2.Hərbi münaqişə termininin etimologiyası**

Münaqişənin çoxsaylı, bəzən üst-üstə düşən və ya bir-birinə zidd olan tərifləri var. O resurslar, güc, status, dəyərlər, məqsədlər və ya maraqlar kimi bir sıra məsələlər üzrə ən azı iki fərd və ya kollektiv aktorların iştirak etdiyi düşmən münasibət kimi izah edilə bilər. Gözlənilən nəticələrə qələbə, məğlubiyyət, hökmranlıq, təslim olma, ayrı-seçkilik, zərərsizləşdirmə, transformasiya, məcbur etmə, zədələnmə, real və ya təsəvvür edilən qarşı tərəfin məhv edilməsi və aradan qaldırılması daxildir. Bu, həmçinin münaqişənin həlli, nizamlanması, dayandırılması, dalana dirənməsi, eskalasiyası və deskalasiyası ola bilər.

Münaqişə dəyərlər və ya statusa, gücə və məhdud resurslara iddialar üzərində mübarizədir, burada iştirak edən qrupların və ya fərdlərin məqsədləri yalnız arzuolunan dəyərləri əldə etmək deyil, həm də rəqibləri neytrallaşdırmaq, zədələmək və ya üstələməkdir.

Münaqişə ən azı iki tərəfin (fərdlərin, qrupların, dövlətlərin) iştirak etdiyi elə bir vəziyyətdir ki, onlar bir araya sığmayan məqsədlərə can atır və ya eyni məqsədə çatmağa çalışırlar, buna yalnız bir tərəf nail ola bilər [4].

Münaqişə "ictimai qüvvələr arasında rəqabət, mübahisə, gərginlik və toqquşma formasında meydana çıxır. Münaqişə tərəflərin mövqeləri arasında uyğunsuzluğun dərk edildiyi, qarşıduran tərəflərin fərqli mövqe tutmaq istəklərinin rəqabətli vəziyyətidir. Münaqişə bir tərəfin vəziyyətini digər tərəfin hesabına yaxşılaşdırmağa yönəlmiş məqsədyönlü fəaliyyətdir.

Hərbi münaqişə maraqlarda qəbul edilən fərqlilik və ya tərəflərin cari istəklərinin eyni vaxtda həyata keçirilə bilməyəcəyinə olan inamdır. Münaqişə fərdlər, korporativ qurumlar və ya daha sıx əlaqəli kvazi qruplardan ibarət iki və ya daha çox tərəf arasında mənfi emosiyaların və ya konfliktli davranışının məqsədyönlü qarşılıqlı mübadiləsidir.

Münaqişə iki və ya daha çox tərəf arasında artan rəqabətdir, hər biri müəyyən üstünlüklər əldə etməyə çalışır - məsələn, güc, resurslar, maraqlar, dəyərlər, ehtiyaclar və s. Münaqişə toqquşan məqsədlər uğrunda aparılan mübarizədir.

İngilis tədqiqatçı Cohan Qaltung hərbi münaqişəni iki tərəfə bölür. Birincisi, eyni məhdud məqsədi güdən iki şəxs və ya aktor tərəfindən izah edilən mübahisədir. Digər tərəfdən isə iki uyğunsuz məqsəd güdən bir şəxs və ya aktor kimi təsvir edilən dilemmadır. Çoxumuz hər ikisini gündəlik

olaraq yaşayırıq. Münaqişə resurslar, imkanlar və enerji yaradır. Problem enerji və resursları konstruktiv şəkildə necə yönləndirməkdir [5, s.70-71].

Çinlilər münaqişəni "təhlükə" + "imkan" kimi təyin edirlər. "Təhlükə" "zorakılığa", "imkan" isə yaradılışın əsası olan "çağırış"a yaxındır. Bu o deməkdir ki, münaqişəni inkar etmək və ya danmaq əvəzinə, münaqişəni düzgün başa düşmək və təhlil etmək lazımdır. Bu yanaşma yaradıcı konflikt transformasiyasına alternativin olmadığı tezisinə əsaslanır [5, s.71-72].

J. Lundun fikrincə, maraqlar bir çox cəhətdən toqquşa bilər [6, s.3-4]:

- Resurslar uğrunda - ərazi, enerji mənbələri, qida məhsullarına nəzarət və bölüşdürülməsi prosesində iştirak;
- Hakimiyyət uğrunda – nəzarət və siyasi qərarların qəbulunda iştirak;
- Identiklik uğrunda – insanların bağlı olduqları mədəni, sosial və siyasi dəyərlərdən yararlanmaq;
- Status uğrunda – xüsusən də hökumət, din və ya ideologiya sistemlərində təcəssüm olunmuş hüquq və imtiyazlar.

Çoxsaylı təriflərdən bu nəticəyə gəlmək olur ki, hərbi münaqişə – qarşıdurma, mübarizə forması, konfliktli davranış, toqquşan maraqlar, mənfi emosiyaların qarşılıqlı mübadiləsi, güzəştsiz vəziyyət, məqsədyönlü ziyan vurmaq və iki tərəf arasında xüsusi vəziyyət və siyasət aləti kimi xarakterizə edilir.

Hərbi münaqişələr müxtəlif sosial-iqtisadi formasiyalarda özünəməxsus inkişaf yolu keçmiş, kəmiyyət və keyfiyyət dəyişikliyinə məruz qalmışdır. Bəşər sivilizasiyasının ən erkən mərhələsi olan

**2.1.İbtidai icma dövründə**

(40 min il əvvəll yaranıb VI min illiyin sonunadək davam edib) münaqişələr yaşamaq ugrunda mübarizə kimi xarakterizə edilib. Tayfalararası qarşıdurmalar əlverişli yaşayış məkanı uğrunda primitiv mübarizə vasitələri ilə həyata keçirilmişdır. Bu münaqişələrin qida mənbələri uğrunda aparıldığını nəzərə alsaq, ibtidai qarşıdurmaların iqtisadi xarakteri qabarıq şəkildə özünü büruzə verib. Məhz o vaxtlardan əlverişli yaşayış məkanları uğrunda rəqabət ibtidai mübarizənin qayəsini təşkil etmiş və yaşamaq uğrunda mübarizəyə haqq qazandırmışdır. Sərt iqlim və yaşayış şəraitində əlverişli məkanların məhdudluğu tayfalararası müharibələrə amansız xarakter vermişdir. Həmin müharibələr siyasi mahiyyət kəsb etməmişdir. Onlara totem və fetişlərin təsiri inkaredilməz olsa da, bu həmin münaqişələrin dini xarakter almasına dəlalət etməyib. Bununla belə müharibə ilə əlaqəli bəzi rituallar mövcud olub. Mübarizə vasitələri daş silahlardan nizə, ox və kamana kimi təkmilləşmiş və ikili (həm ov, həm də döyüş) istifadə nəzərdə tutlmuşdur.

**2.2.Quldarlıq dövründə**

(b.e.ə IV minilliyin sonu - eramızın V əsrinin sonu) hərbi münaqişələr haqqında ilk təəssüratlar Babil mənbələrində, Manu qanunlarında, həmçinin antik dövrün digər elmi və yazılı abidələrində özünə yer edib. Həmin dövrünün müharibələri daha çox ərazi işğalları və əlverişli coğrafi məkanların ilhaqı üzərində qurulmuş, koalisiyaların primitiv forması olan şəhər dövlətləri ittifaqları (Afina, Sparta) arasında aparılmış, gənclərin hərbi xidmətə hazırlığı sərt qaydalarla tənzimlənmişdi. Bu dövrdə işğalçı müharibələr siyasi xarakter almağa başlamış, hərbi quruculuq işlərinin təkmilləşdirilməsi və ordunun hakim zümrənin dayağına çevrilməsi bir sıra stimullaşdırıcı sosial tədbirlər hesabına həyata keçirilmişdi.

Məhz quldarlıq dövründə ordunun legitim orqana çevrilməsi və müharibənin milli maraqların əsas aləti kimi qəbul olunması baş verdi. Həmin dövrdə hərbi zorakılığın müdafiə xarakterli məqsədlər (işğala qarşı mübarizə, üsyan, itaətsizlik və s.) üçün aparılması da diqqəti cəlb etməyə başladı. Hərbi zorakılıqdan iqtisadi maraqlar (əsirlərin qul kimi satılması, qladiator döyüşləri) naminə istifadə olunması halları geniş yayılmışdı.

**2.3.Orta əsrlər dövrünun (b.e. V əsr-XVII əsrin ortaları) hərbi münaqişələri**

Müharibələrin aparılması və döyüş texnikası təkmilləşmiş, ordunun sosial problemlərinə diqqət artırılmış, dini ehkamların hərbi zorakılığa təsir imkanları çoxalmış, müharibələrin elmi-nəzəri araşdırılması istiqamətində ciddi addımlar atılmış və ilk dəfə olaraq müharibəyə dair tənqidi fikirlər səslənməyə başlanmış və müharibə hüququ deyilən bir anlayışın tədricən formalaşması prosesinə start verilmişdi.

Həmin dövrdə A.Avqustin, F.Akvinski, T de Şarden və digər dini mütəfəkkirlərin müharibə haqqında fəlsəfi-tarixi konsepsiyalarında teoloji ehkamların təsiri dominatlıq etmiş, onu Xeyir və Şər qüvvələr arasında bitməyən mübarizə kimi qələmə vermişlər. Bu yanaşma uzun müddət müharibənin izahında həlledici olmuşdur.

Hakimiyyət və onun dayağına çevrilmiş klerikal dairələr hərbi zorakılığa öz sərvətlərinin müdafiəsi, düşmənlərin sıradan çıxarılması və tabeçilikdə olan insanların itaətdə saxlanılması vasitəsi kimi yanaşmışlar.

Orta əsr mütəfəkkirlərinin də əsərlərində müharibəyə münasibətdə radikal baxışlar üstünlük təşkil edib. “İnsan insana qarşı canavardır”, “Hamının hamıya qarşı müharibəsi” kimi fəlsəfi fikirlər orta əsrlərdə zorkaılığı xaosun və tiraniyanın ekvivalenti kimi təsvir edir.

Renessans dövründə dini baxışlardan azad olan müharibə status uğrunda mübarizə və merkantilist maraqların alətinə çevrilir. Həmin dövrün görkəmli mütəfəkkiri N.Makiavelli qeyd etmişdir ki, “həmişə müharibəyə başlayanların məqsədi özlərini zənginləşdirmək, düşmənlərini isə yoxsullaşdırmaqdan (zəiflətməkdən) ibarət olub” [3, s.4].

**2.4.Yeni dövrdə (b.e. XVII əsrin ortaları-XX əsrin əvvəlləri)**

Yeni dövrdən başlayaraq müasir günümüz də daxil olmaqla hərbi münaqişələr sürətlə transformasiyalara məruz qalmış, döyüş vasitələri təkmilləşmiş, maddi-texniki təminat yüksəlmiş, siyasi məqsədlərin realizə vasitəsinə çevrilmişdir. Quldarlıq və feodalizm dövrünə xas olan birinci müharibə nəsli – düz xətt, cinah və kolon müharibəsi son dörd – beş yüzillikdə xəndək, manevr, asimmetrik və məhdudiyyətsiz kimi qələmə verilən müharibə nəsilləri ilə əvəzlənib. Hərbi münaqişələrin öyrənilməsinə K.Klauzeviç, H.Münkler, L.Qart, və s. tədqiqatçılar mühüm tövhələr vermişlər.

Bu dövrdə iki dünya müharibəsi baş vermiş və nüvə silahı kəşv edilmiş, bəşəriyyətin mövcudluğu sual altına düşmüşdür. Bü faciələr qlobal miqyasda müharibələrə qarşı profilaktik tədbirlərin görülməsini ən vacib məsələyə çevirmişdir. Müharibənin aparılması qaydalarını və müharibə qurbanlarının hüquqlarını tənzimləyən "Haaqa" və "Cenevrə" sistemləri institusional xarakter almışdır. Məhz bu dövrdə qlobal təhlükəsizlik sisteminin yaradılması ideyası gerçəkləşmiş, BMT təsis edilmişdir.

**2.5.Müasir dövrdə (XX əsrin əvvəlləri-XXI əsr)**

Bu dövrdə hərbi münaqişələr siyasətin yalnız zorakı deyil, hətta qeyri-zorakı yollar və vasitələrlə davamıdır. Onlar siyasi mahiyyətini itirərək, cinayətkar fəaliyyətlərin alətinə çevrilib. Bu günkü münaqişələrdə siyasi məqsəd cinayətkar işbirliyi ilə əvəzlənib.

Müasir silahlı münaqişələr dövlətləri qeyri-hərbi mübarizə strategiyalarının – informasiya zorakılığı, rəngli inqilablar, şəbəkə, mass-mediya müharibələri, koqnitiv müharibələr vasitəsilə ram edir, kütləvi döyüş səhnəsi yaratmadan onun ərazisi, siyasi sistemi və suverenliyi üzərində nəzarəti ələ keçirir. Bu tip münaqişələr beynəlxalq hüquqdan yan keçməklə anneksiyanı gerçəkləşdirir.

Qloballaşmanın inkişafı və informasiya texnologiyaları inqilabı üçüncü minilliyin əvvəllərində silahlı mübarizə vasitələrinin təkmilləşdirilməsi ilə yanaşı, münaqişələrin transformasiyasına öz töhfəsini verib. Transformasiya fenomeni qanuni və qeyri-qanuni, bir-birinə ekvivalent və qeyri-bərabər ola bilən və hərbi-güc mübarizə üsulları ilə yanaşı, dolayı qeyri-hərbi hərəkətlərdən istifadə edən müharibə subyektlərinin yaranması ilə əlaqələndirilir.

Təhlükəsizlik məkanının və onun yeni strukturunun genişlənməsi baş verib. Qeyri-hərbi mülki təhdidləri daxil etməklə beynəlxalq təh-lükəsizliyin predmet məkanı genişlənib. Yerli və xarici tədqiqatçıların əksəriyyətinin fikrincə, "soyuq müharibə"nin başa çatması ilə yanaşı, qloballaşma, dünyada demokratikləşmə prosesləri, elmi-texniki inqilabın inkişafı, qeyri dövlət aktorların rolunun güclənməsi, dövlətlərin funksiyalarının və qüvvələr

balansının dəyişmə tendensiyası müasir təhlükəsizlik məkanının yeni strukturunun formalaşmasına böyük təsir göstərib.

Son onilliklərdə beynəlxalq təhlükəsizliyin subyekt sferasının genişlənməsi müşahidə olunur. Vestfal dünya qarşılıqlı əlaqə sisteminin fəaliyyət göstərdiyi təxminən 350 il ərzində dövlətlər müharibə və sülh, sonra isə beynəlxalq təhlükəsizlik məsələlərində aparıcı, demək olar ki, inhisarçı aktorlar olmuşlar. Bəzən qeyri-dövlət birləşmələri - dəniz quldurları, iri ticarət şirkətlərinin silahlı qrupları, transsərhəd ideoloji hərəkatların döyüş hücrələri (məsələn, anarxistlər, sosialistlər), öz müqəddəratını təyin etmək üçün mübarizə aparan xalqların silahlı birləşmələri müxtəlif regionlarda sülhün və beynəlxalq təhlükəsizliyin durumuna əhəmiyyətli dərəcədə təsir göstərirdilər [7, s.61].

Son illərdə digər transsərhəd təhdidlər kibercinayətkarlıq, narkotiklərin qanunsuz istehsalı və daşınması, piratçılıq (yalnız Afrikanın şimal-şərq sahillərində deyil), qeyri-qanuni miqrasiya, irimiqyaslı maliyyə cinayətləri ilə məşğul olan cinayətkar qeyri-dövlət təşkilatları və şəxslər hesabına ciddi şəkildə artmaqdadır.

Qeyri-siyasi zorakılıqla bağlı cinayət xarakterli daxili və transmilli təhdidlərdən - informasiya şəbəkələrinin sındırılması, narkotiklərin qanunsuz dövriyyəsi, piratçılıq, qanunsuz silah ticarəti, transmilli mütəşəkkil cinayətkarlıqdan və s. qlobal və regional təhlükəsizliyin təmin edilməsi sahəsi narahatlıq keçirir. Bu cür təhdidlərə çox vaxt "boz" təhdidlər deyilir, çünki onlar hərbi və mülki təhlükələrin kəsişməsində yerləşir. Onların qeyri-siyasi zorakılıqla bağlı təhdidlərin xüsusi kateqoriyasına aid edilməsi həmin təhdidlərin xarakterinə görə, habelə onlara qarşı mübarizənin xüsusiyyətləri nəzərə alınmaqla əsaslandırılır. Bu təhlükə kateqoriyası əvvəllər daxili və ya dövlət təhlükəsizliyinin milli komplekslərində mühüm yer tutub. Lakin bu gün bu təhdidlər qloballaşdıqca, transmilli xarakter aldıqca və onlara qarşı mübarizədə beynəlxalq əməkdaşlıq gücləndirdikcə bu "boz" təhlükələr zonası və onlara qarşı mübarizə ümumi beynəlxalq təhlükəsizlik sisteminin mühüm tərkib hissəsinə çevrilir [7, s.67-68].

**3.Hərbi münaqişələri öyrənən nəzəriyyələr**

Hərbi münaqişələrin öyrənilməsi ilə bağlı müxtəlif məktəblərin və nəzəriyyələrin rolu inkaredilməzdir. Məhz bu məktəblərin tədqiqi sahəsində münaqişənin bir kateqoriya kimi hərtərəfli oyrənilməsinə, onun xarakterik xüsusiyyətlərinin aydınlaşdırılmasına, anlayış aparatında baş vermiş dəyişikliklərin üzə çıxarılmasına nail olunub. Məhz həmin tədqiqatlar nəticəsində hərbi münaqişələrin təbiətində baş vermiş dəyişikliklər, onların qeyri-hərbi tərkiblərinin rolunun artması səbəbləri, bütövlükdə silahlı zorakılığa yeni baxışların formalaşması mümkün olub.

Hərbi münaqişələrin anlayış aparatında və təbiətində baş verən radikal dəyişikliklərin öyrənilməsində bir sıra məktəblərin interpretasiyalarını nəzərdən keçirmək məqsədəuyğun hesab edilir.

**3.1.Təkamül məktəbi**

Təkamül məktəbi kimi tanınan elmi istiqamətin nümayəndələri insanlar arasında müharibələri heyvanların davranışının analoqu kimi təqdim edir [3,s.5]. Onların mübarizəsi ərazi, qida və tərəfdaşlıq uğrunda rəqabət kimi xarakterizə edilir. Heyvanlar əgər təbiətinə görə təcavüzkar hesab edilirsə, insanlarda təcavüzkarlıq qarşıdurma və müharibə ilə asossiasiya edilir. Bununla belə insan təcavüzkarlığı bəşəriyyəti daha çox narahat etməkdir. Buna səbəb yeni texnologiyaların insan təcavüzkarlığının potensialını qat-qat artırması və onun təsir imkanlarının bütün bəşəriyyətin mövcudluğunu təhdid etmək halına gətirməsidir.

**3.2.Psixoloji məktəb**

Psixoloji məktəb hərbi münaqişələrin səbəbini insanın təcavüzkar davranışının öyrənilməsi kontekstində araşdırıb. Bu məktəbin nümayəndələri müharibəni neqatib insan təbiətinin məhsulu və insan psixikasının pozulmasının nəticəsi kimi qələmə vermişlər. Yunan filosofu Fukididin müharibəni xaos və şərə meyilli neqativ insan təbiətinin nəticəsi ilə əlaqələndirdiyi halda, digər psixoloqlar təcavüzkarlığı insan psixikasının ayrılmaz cəhəti kimi deyil, onun pozulmasının nəticəsi kimi xarakterizə etmişlər [3, s.5]. Napoleon, Hitler və Mussolininin fəaliyyəti buna misal ola bilər. Məhz sonuncuların fikrincə, umumbəşəri sülh dövrünün bərqərar olması ilə əlaqədar effektli mülki nəzarət sistemi psixi cəhətdən anormalların hakimiyyətə çıxışını əngəllədi.

**3.3.Antropoloji məktəb**

Bu məktəb psixoloji yanaşmanı inkar edərək, əsaslandırmağa çalışırdı ki, təcavüzkarlığa meyil irsi ötürülmür, tərbiyə prosesində formalaşır, yəni konkret sosial mühitin mədəni təcrübəsini, onun dini və ideoloji dəyərlərini əks etdirir. Onların nöqteyi-nəzərinə əsasən, zorakılığın müxtəlif tarixi formaları arasında heç bir əlaqə yoxdur və ya onların hər biri özünün spesifik sosial mühitində yaranıb [3, s.6].

**3.4.Siyasi yanaşma**

Siyasi yanaşma K.Klauzeviçin "müharibə siyasətin digər vasitələrlə davamıdır" fikri üzərində formalaşıb. Hərbi münaqişə bir tərəfdən qarşıya qoyulmuş məqsədə zorakı vasitələrlə çatmağı təbliğ edir. Digər tərəfdən hər bir müharibənin özü müxtəlif siyasi proseslərin məhsulu hesab edilir [8, s.34-35]. Bu yanaşma tərəfdarları müharibənin mənşəyini beynəlxalq mübahisələr və diplomatik oyunlarla əlaqələndirirdilər.

Problemə müasir prizmadan yanaşsaq, K.Klauzeviçin müharibə haqqında verdiyi tərifin asanlıqla bugünkü günümüzə uyğun olmasını əsaslandırmaq

mükündür. Halbuki, əksər tədqiqatçılar müasir müharibələrin Klauzeviçin təsvir etdiyi klassik müharibədən köklü şəkildə fərqləndiyini yazır. Müəllifin “müharibə siyasətin digər vasitələrlə (bu və ya digər yollarla) davamıdır” ifadəsini müasir təmassız müharibələrə, yumşaq güc vasitələri ilə aparılan informasiya müharibələrinə şamil etmək olar. Müasir texnologiyaların sürətli inkişafı milli dövlətlərin suverenliyini dolayı fəaliyyətlər strategiyası hesabına kütləvi, uzunmüddətli müharibələr aparmadan pozmaq və ya onun siyasi hakimiyyətini ələ keçirmək mükündür.

**3.5.Sosioloji yanaşma**

Münaqişə fenomeninin cəmiyyətin sosial həyatında qalaq-qalaq yığılmış problemlərlə, etnik, dini zəmində ayrı-seçkiliklə bağlayan yanaşma *sosioloji yanaşma* hesab edilir. Onun tərəfdarları E.Ker və X.U.Veler müharibəni vuruşan ölkələrin daxili sosial vəziyyətinin və sosial strukurunun məhsulu hesab edir. Bir çox sosioloqlar müharibənin universal tipologiyasını işləyib hazırlamağa, onlara təsir edən bütün amillərin (iqtisadi, demoqrafik) nəzərə alınması ilə onları formalaşdırmağa, onların qarşısının alınması üçün işlək mexanizmlərin yaradılmasına cəhd göstərirlər. Hələ 1920-ci ildə L.F.Riçardson tərəfindən təklif edilmiş müharibələrin sosio-statistik təhlili geniş istifadə edilir [3,s.6].

**3.6.Maltusa nəzəriyyəsi**

Hərbi münaqişəyə haqq qazandıran və onu insan artımının qarşısını alan vasitələrdən biri kimi qələmə vermiş nəzəriyyə Maltusa məxsusdur. Həmin nəzəriyyə silahlı toqquşmaları əhalinin artımı ilə resursların tükənməsi arasında asimmetriya ilə əlaqələndirib [9, s.1566]. Bu nəzəriyyə məzmunca insanların qidalanması və inkişafı üçün əlverişli məkanların işğalına haqq qazandıran klassik geosiyasət nəzəriyyəsinə çox yaxındır.

Tomas Maltus (1766-1834) əhali artımı tənzimləyən vasitələr arasında hərbi zorakılıqdan savayı, xəstəlik və aclığın olmasını da qeyd etmişdi. Bu gün müəllifin fikirlərdən qlobal güc uğrunda mübarizə aparan dövlətlərin koronavirus, ebola, Sibir yazvası və s. kimi pandemiyalardan (bioloji silahlardan) yararlanmağa çalışması inkaredilməzdir.

Tarixən bütün hərbi toqquşmalar təbii ehtiyatların dünya üzrə qeyri-bərabər paylanmasının nəticəsidir. İqtisadi sərvətlərə və əlverişli iqtisadi şərtlərə nail olmaq, zəngin regionlara və enerji resurs mənbələrinə çıxış əldə etmək istənilən hərbi münaqişəyə iqtisadi məzmun verir. Müasir dövrdə iqtisadi xarakterli müharibələrə dəhliz müharibələri də aid edilir. Hazırda təbii ehtiyatların həcminin azalması və iqlim dəyişikliyi şəraitində iqtisadi cəhətdən inkişaf etmiş dövlətlər həm hərbi güc tətbiq etmədən, həm də güc yolu ilə bütün vasitələrlə digər ölkələrin enerji ehtiyatlarına çıxış əldə etməyə çalışırlar.

Dövlətlər arasında siyasi münasibətlər böhran xarakteri aldıqda bu iqtisadi-ticarət əlaqələrinin kəsilməsinə və ya zəiflədilməsinə, iqtisadi sanksiyaların işə düşməsinə gətirir. Qərbin Rusiyaya və İrana qarşı sanksiya müharibəsi fikrimə əsas verir. Məhz bu baxımdan iqtisadi yanaşma münaqişələrin baş verməsini merkantlist maraqlarla sıx bağlı olan geoiqtisadi amillərlə əlaqələndirir, müharibəyə ölkələr arasında iqtisadi rəqabətin artması kimi baxır.

**3.7.İnformasiya nəzəriyyəsi**

Beynəlxalq münasibətlər üzrə mütəxəssislər arasında populyar olan *informasiya nəzəriyyəsi* müharibəni informasiya çatışmazlığı ilə izah edir. Onun tərəfdarlarının fikirlərinə əsasən, müharibə qarşılıqlı qərarların (tərəflərdən birinin hücum etmək haqqında qərarı və digərinin isə müqavimət göstərmək haqqında qərarı) nəticəsi hesab edilir. Məğlub tərəf özünün və digər tərəfin inkanlarını obyektiv qiymətləndirməyən tərəfdir. Məhz bu səbəbdən düşmənin məqsədi və onun müharibə aparmaq qabiliyyəti haqqında biliklər həlledici əhəmiyyət kəsb edir. Burada qədim Çin strateqi Sun-Tszının "düşmənini və özünü tanıyan istənilən savaşda qalib gələr. Özünü tanıyıb, düşmənin tanımayan məğlubiyyətə məhkumdur" [10, s.32] fikirləri yerinə düşür.

Müasir müharibələrin transformasiyasında informasiya texnologiyalarının rolu aksioma çevrilib. Məhz onun sahəsində müasir müharibələrin taleyində insan amilindən daha çox yüksək texnologiyaların məhsulu olan yüksək dəqiqlikli silahlar və PUA-lar mühüm rol oynayır. Elə bu səbəbdən müasir müharibələrin informasiyaların və yüksək texnologiyaların qarşıdurması olması fikri danılmaz həqiqət hesab edilir. Çoxsaylı şəxsi heyətə deyil, qabaqcıl texnologiyaya malik ordular müasir müharibələr üçün daha effektli hesab edilir.

**4.Nəticə**

1. Münaqişələr bəşər tarixinin ayrılmaz və təkzibolunmaz hissəsdir;
2. Hərbi münaqişələr sosial ziddiyyətlərin və bərabərsizliyin məhsulu olsa da, tərəqqinin əsas meyarı hesab edilir;
3. Sosial-iqtisadi formasiyalar hərbi münaqişələrin transformasiyasında mühüm rol oynayıb;
4. Hərbi münaqişələrin spesifik xüsusiyyətlərinin öyrənilməsində konfliktoloji məktəb və yanaşmaların xidməti danılmazdır;
5. Qloballaşma hərbi münaqişələrlə bağlı "Klauzeviç irsi"ni ciddi dəyişikliyə məruz qoyub, klassik interpretasiyaları qeyri – konvensional elementlərlə zənginləşdirib;
6. Son 30 il ərzində müasir müharibələrin sürətli transformasiyasında informasiya texnologiyaları mühüm rol oynayıb;

7. Müasir hərbi münaqişələrə qarşı mübarizə qlobal təhlükəsizliyin əsas prioriteti hesab edilir. Həmin münaqişələrin hibrid, transmilli və kriminal xarakter alması qlobal miqyasda onlara qarşı mübarizəni təxirəsalmaz vəzifəyə çevirib.

## ƏDƏBİYYAT

1. *Геополитика. Информационно-аналитическое издание.* Выпуск XXI, 2013. 162 стр. https://studfile.net/preview/6724211/
2. Юсупов, А. К., & Лубяной, В. И. (2019). *Сущность и классификация войн и военных конфликтов: содержание и анализ проблемы в современных условиях*. XI Международная студенческая научная конференция. Студенческий научный форум -Москва. https://scienceforum.ru/2019/article/2018014030
3. Рябоконев, С. А. (2016). *Вооруженные конфликты современности: специфика и особенности*. XI Международная студенческая научная конференция. Студенческий научный форум - Москва. https://files.scienceforum.ru/pdf/2016/19055.pdf
4. Schmid, A. (2000). *Thesaurus and Glossary of Early Warning and Conflict Prevention Terms.* London, Forum on Early Warning and Early Response, 30 p.
5. Galtung, J. (1996). *Peace by Peaceful Means: Peace and Conflict, Development and Civilization.* Sage Publications, London, 280 p.
6. (2008). *PCR274 Introduction to Conflict Transformation.* National Open University of Nigeria, 123 p. ISBN: 978-058-353-X
7. Кулагин, В. М. (2012). *Современная международная безопасность* (учебное пособие). Москва, КНОРУС, 432 с. ISBN 978-5-406-01771-5
8. Клаузевиц, К. (1998). *О войне*. Москва, Логос, 451 с.
9. Acemoglu, D., Fergusson, L., & Johnson, S. (2020). Population and Conflict. *Review of Economic Studies 87* (4), 1565–1604 https://doi.org/10.1093/restud/rdz042
10. Сунь-цзы, *Искусство войны.* Москва, ЭКСМО, 83 с.

## Эволюция теоретических взглядов на военные конфликты

**Зафар Наджафов***

* Доктор философии в области национальной безопасности и военных наук,
Институт военного управления Национального университета обороны; Баку, Азербайджан
E-mail: zafarnajafov@yahoo.com
https://orcid.org/0000-0002-1392-9359

**Цитировать статью:** Наджафов, З. [2024]. Эволюция теоретических взглядов на военные конфликты. *Журнал «Metafizika», 7(2),* с.31-43.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i2.31-43

**История статьи:**

**Абстракт.** В статье говорится о происхождении, особенностях исторического развития и научных подходах к военным конфликтам. Место и роль вооруженных конфликтов и войн в истории человечества, их дуалистическая природа и объяснение аппарата понимания играют ключевую роль в изучении проблемы. Заметные радикальные изменения в общественно-экономических формациях оказали серьезное влияние на характер, методы и средства военных конфликтов, создали основу для возникновения и развития научных исследований в этом направлении. «Революция в военном деле» привела к трансформации вооруженной борьбы и появлению разделения «поколений войны». Объяснение военных конфликтов в контексте различных школ и подходов свидетельствует о том, что это социальное явление имеет многогранный и сложный характер и тесно связано с другими научными областями.

**Ключевые слова:** военный конфликт, социально-экономическая формация, глобализация, трансформация, международная безопасность

## Evolution of Theoretical Perspectives on Military Conflicts

**Zafar Najafov***

**Abstract.** The article deals with the origin, historical development features, and scientific approaches to military conflicts. The place and role of armed conflicts and wars in human history, their dualistic nature, and the explanation of the understanding apparatus play a key role in the study of the problem. Noticeable radical changes in socio-economic formations had a serious impact on the nature, methods, and means of military conflicts and created a basis for the emergence and development of scientific research in this direction. The "revolution in military affairs" has resulted in the transformation of armed struggle and the emergence of the "generations of war" division. The explanation of military conflicts in the context of various schools and approaches indicates that this social phenomenon has a

*Статья поступила в редакцию: 12.03.2024*
*Отправлена на доработку: 15.04.2024*
*Принята для печати: 29.04.2024*

* Doctor of philosophy in National Security and Military Sciences,
Institute of Military Management of the National Defense University; Baku, Azerbaijan
E-mail: zafarnajafov@yahoo.com
https://orcid.org/0000-0002-1392-9359

**To cite this article:** Najafov, Z. [2024] Evolution of theoretical perspectives on military conflicts. *"Metafizika" jurnalı*, 7(2), səh.31-43.
https://doi.org/10.33864/2617-751X.2024.v7.i2.31-43

**Article history:**
*Received: 12.03.2024*
*Accepted: 29.04.2024*

multifaceted and complex nature and is closely related to other scientific fields.

**Keywords:** military conflict, socio-economic formation, globalization, transformation, international security

## REFERENCES

**1.** *Geopolitics. Information and analytical publication.* Issue XXI, 2013. 162 pages. https://studfile.net/preview/6724211/ (in Russian)

**2.** Yusupov, A. K., & Lubyanoy, V. I. (2019). T*he essence and classification of wars and military conflicts: content and analysis of the problem in modern conditions.* XI International Student Scientific Conference. Student Scientific Forum - Moscow. https://scienceforum.ru/2019/article/2018014030 (in Russian)

**3.** Ryabokonev, S. A. (2016). *Armed conflicts of our time: specifics and features.* XI International Student Scientific Conference. Student Scientific Forum - Moscow. https://files.scienceforum.ru/pdf/2016/19055.pdf (in Russian)

**4.** Schmid, A. (2000). *Thesaurus and Glossary of Early Warning and Conflict Prevention Terms.* London, Forum on Early Warning and Early Response, 30 p. (in English)

**5.** Galtung, J. (1996). *Peace by Peaceful Means: Peace and Conflict, Development and Civilization.* Sage Publications, London, 280 p. (in English)

**6.** (2008). *PCR274 Introduction to Conflict Transformation.* National Open University of Nigeria, 123 p. ISBN: 978-058-353-X (in English)

**7.** Kulagin, V. M. (2012). *Modern international security (textbook).* Moscow, KNORUS, 432 p. ISBN 978-5-406-01771-5 (in Russian)

**8.** Clausewitz, K. (1998). *About war.* Moscow, Logos, 451 p. (in Russian)

**9.** Acemoglu, D., Fergusson, L., & Johnson, S. (2020). Population and Conflict. *Review of Economic Studies 87* (4), 1565–1604 https://doi.org/10.1093/restud/rdz042 (in English)

**10.** Sun Tzu, *The Art of War.* Moscow, EKSMO, 83 p. (in Russian)